

**ƏLİRZA HƏSRƏT**







## QƏRİB AYAQ İZLƏRİ

Yolların göz yaşıdır,
Qərib ayaq izləri.
Bu yolun harasında,-
Durub sayaq izləri?!

Ah, bu mizrab-sim belə,
Görməyib tilsim belə.
Bu yollara kim belə, -
Vurub dayaq, izləri?

Şam tutub dərd-sərimdən,
Ruhum çıxır tərimdən.
Bu yumruq əllərimdən, -
Getməz bayraq izləri.

## YOLUM DÜŞDÜ DOĞMA YURDA

Yolum düşdü doğma yurda,
Gözü güldü dağlarımın.
Ümidləri pərvazlandı, -
O uşaqlıq çağlarımın.

Qarşıladı gülər üzlə,
O yurd məni, torpaq məni.
Kölgəsi düşdüyü yerdir, -
Hər ağacın öz Vətəni.

Saçımın hər dəni bəlkə ,-
Bir ağ çiçək dəstəsidir.
Ürəyimdə qövr eləyən, -
Ana Kürün bəstəsidir.

Bir eşqin gül çöhrəsiyəm,
Pöhrələnən budaqlarda.
Şəhər eşqim, kənd istəyim, -
Nəğmələnir dodaqlarda.

## SƏNİ SEVİB BAĞIŞLADIM

Ruhumla qol-boyun olub,
Bu can bu bədənə görə.
Mənə hamı qərib deyir,
Bu zalım Vətənə görə.

Ümidlərdir qol-qanadım,
Dillərdə dolaşır adım.
Səni sevib bağışladım,
Saçımdakı dənə görə.

Götürməz ki bu ahı eşq,
Sevənlərin günahı eşq.
Dünyada hər ilahi eşq, -
Ayrılıqdır mənə görə.

## KİTABIM

Kövrəldim bu gəlişinə,
Yubandın nədən, kitabım?
İkimiz bir canıq elə,
Sən ruh, mən bədən, kitabım.

Qoy gəlsin sözə əl basan,
Sevən könlü duyar asan.
Bu qəribin yurd payısan,
Ay mənim Vətən kitabım.

Eşq nurudur sözün cəddi,
Məğrurdur, əyilməz qəddi.
Gözəlliyə ibadətdi, -
Bu nazın, ədan, kitabım.

## İLAHİ, DAĞLARIN KEÇ GÜNAHINDAN

Çeşmələr o qədər gözəlləşib ki,
Qızlarla dolubdur bulaqlar, əla!
Deyərsən, açılmış nar çiçəyidir, -
Adımı o çəkən dodaqlar, əla!

Günəşin şəfəqi, çəmənin təri,
Ruhuma tutduğum aynadır, pəri.
Yaşıl ağacların gülür gözləri,
Quşlar yuva quran budaqlar əla!

İnciyib qulundan, küsüb şahından,
İlahi, dağların keç günahından.
Çarmıxa çəkilən qərib ahından, -
Dumana bürünən o dağlar əla!

## ZİRVƏLƏRƏ YARAŞAN UCALIĞIMSAN ELƏ

Xatirələr nə gözəl pöhrələnib, gül açıb,
Kim bu sayaq vurulub, kim belə könül açıb?!
Sirrimizi aləmə bir şeyda bülbül açıb,
Sən bağbanı olduğum sevgi bağımsan elə.

Ömrümüz bir ağacdır, sən budaq,
mən yarpağam,
Səndən uzaqlaşmaram,
yarpaq-yarpaq ha yağam.
Canımdasan, sanıram
yenilməyən bir dağam,
Zirvələrə yaraşan ucalığımsan elə.

Tanrı ərməğanıdır bizim bu eşq payımız,
Bu paydan nur götürüb Günəşimiz, Ayımız.
Gör nə gözəl bəzənib bu ömür sarayımız,
Ruhumda aynalanan gur çırağımsan elə.

## AYRILIQ YERİNDƏN QIRILDI BU EŞQ

Sənin dodağında çiçəkləmişdi,
Bir zalım əliylə dərildi bu eşq.
Gözlərim yolunu elə çəkdi ki, -
Ayrılıq yerindən qırıldı bu eşq.

Qərib fəryadıydı, aşiq halıydı,
Divanə ruhların qeylü-qalıydı.
Bağrımın başında lalə xalıydı,
Keçib göz yaşından duruldu bu eşq.

Yenə pəncərəndə yellənir pərdən,
Xatirən şam tutub ən xoş xəbərdən.
Hər gün mən ölmüşü qaldırıb yerdən, -
Sənin ayağına sərildi bu eşq.

## BU YOLDA ÖLÜM VAR, AYRILIQ YOXDUR

Mənə də o güldən şeh süz bir udum,
Bəlkə pöhrələndi solğun umudum.
Səni yarı sevim, yarı unudum, -
Desinlər, məhəbbət bəlasıdır bu!

Ocağım torpaqdır, vallah, pirim dən,
Sünbül saçlarımdan kimə verim dən?!
Bir yetim nəğmə tək sözsüz yerimdən, -
Qırıldım, dedilər, Qu yasıdır bu!

Ömür saatını ha tərsinə qur,
Yaşanmış günlərə əl tut, dayaq dur.
Bu yolda ölüm var, ayrılıq yoxdur,
Eşqin ən gözəli, əlasıdır bu!

## GÜLÜN ADAŞISAN

*(Teleaparıcı Çiçək Mahmudqızının şərəfinə)*

Nə gözəl açılıb gül, əhsən, belə!
Gülə sevdalanıb, güləsən belə.
Əcəb yaraşırsan gülə sən belə, -
Gülün adaşısan, adın Çiçəkdir.

Zəvvarı eşq olan ocağam, pirəm,
Durub ha sayasan, birəm ki, birəm.
Belə gözəllikdə nəsən, bilmirəm,
Sənə hər oxşayan qadın, çiçəkdir.

Sən də günahını yu eşq yolunda,
Gör necə oxuyub Qu eşq yolunda?!
Çarmıxa çəkildim bu eşq yolunda,
Tökülən qanıma dedin, çiçəkdir.
Gülün adaşısan, adın Çiçəkdir.

## YANIMDAN KEÇƏNDƏ EHTİYATLI OL

İstər piyada ol, istər atlı ol,
Neçə mərtəbəli, neçə qatlı ol.
Yanımdan keçəndə ehtiyatlı ol,
Qərib beşiyidir qucaq qollarım.

Utanar gül görsə belə tər səni,
Bir az kövrəldəcək bu xəbər səni.
Ahımı şam tutub isidər səni, -
Sinəmdə közlənən ocaq qollarım.

Əlçatmaz zirvədə dumansan, qarsan,
Belə soyuqluqda de, kimə yarsan?
Bir gün o gözələ kəmənd olarsan,
Ay mənim divanə, qoçaq qollarım.

## QÜRBƏT NƏĞMƏSİ

Könül qübarlanır hər yel əsəndə,
Ağac sındıranda, budaq kəsəndə.
Bilirəm sən mənə söyləməsən də, -
Ötməz hər havada quşu qəribin.

Qürbət nəğməsidir hər qərib ahı,
Nə qulu bilinir, nə də ki şahı.
Gözündə açılar hər gün sabahı,
Özünə qarışar başı qəribin

Vətən sevdasıdır arxa-dayağı,
Ahıyla qızınar əli, ayağı.
Zirvəsi qar olan dağlar sayağı,
Bilinməz baharı, qışı qəribin.

